# İdealizm

written by Anar Jafarov Anar Cəfərov
Bertran Rassel (*Bertrand Russell*; 1872-1970) məşhur britaniyalı filosof, analitik fəlsəfənin yaradıcılarındandır. Onun zəngin yaradıcılığı fəlsəfənin bir çox fundamental suallarına cavab axtarışını özündə ehtiva edir. Hazırda biz Rasselin dünyanın onlarca müxtəlif dillərinə tərcümə edilmiş, geniş oxucu auditoriyası üçün nəzərdə tutulan *Fəlsəfənin problemləri* (*The Problems of Philosophy*) əsərini ingilis dilindən Azərbaycan dilinə tərcümə etməkdəyik. Əsər on beş fəsildən ibarətdir ki, onların da hər biri mühüm bir fəlsəfəsi mövzuya həsr edilmişdir. Tərcüməmizin dördüncü hissəsini aşağıda oxuya bilərsiniz.

Dr. Anar Cəfərov

"İdealizm" sözü müxtəlif filosoflar tərəfindən müxtəlif mənalarda istifadə edilir. Onunla biz bu təlimi nəzərdə tutacağıq: mövcud olan hər şey və ya mövcudluğu bilinə bilən hər şey müəyyən mənada zehni olmalıdır. Filosoflar tərəfindən çox geniş şəkildə qəbul olunan bu təlim müxtəlif formalara malikdir və onu müdafiə edənlərin bir neçə müxtəlif arqumentləri vardır. Bu təlimin o qədər çox tərəfdarı var və o, o qədər maraqlıdır ki, fəlsəfənin ən qısa icmalı belə, az da olsa, onun izahını verməlidir.

Fəlsəfi düşüncələrə öyrəşməyənlər belə təlimləri absurd hesab etməyə meyilli ola bilər. Şübhə yoxdur ki, sağlam düşüncə (common sense) stol və stulları, Günəş və Ayı, ümumilikdə maddi obyektləri zehinlərdən və onların məzmunlarından olduqca fərqli, həmçinin zehin dayandıqda mövcudluqlarını davam etdirə bilən nəsnə hesab edir. Biz materiya haqqında düşünürük ki, o, bütün zehinlərdən çox əvvəl mövcud olub; onu zehni fəaliyyətin sadəcə nəticəsi hesab etmək çətindir. Bununla belə, doğru və yanlış olmasından asılı olmayaraq, idealizm tam absurd hesab edilməməlidir.

Yuxarıda gördük ki, fiziki obyektlər müstəqil mövcudluğa malik olsa da, onlar hissi verilənlərdən olduqca fərqli olmalıdır və kataloqun kataloqlaşdırılan şeylərə uyğunluğu kimi onlar hissi verilənlərə yalnız *uyğun* ola bilər. Deməli, sağlam düşüncə fiziki obyektlərin həqiqi daxili təbiəti ilə bağlı məsələdə bizi tamamilə qaranlıqda buraxır; və əgər onları zehni hesab etməyə yaxşı əsas olsaydı, bu fikri yalnız bizə qəribə gəlir deyə legitim olaraq inkar edə bilməzdik. Fiziki obyektlər haqqındakı həqiqət qəribə *olmalıdır*. O, əldə edilməz ola *bilər*, ancaq hansısa filosof inanırsa ki, həmin həqiqəti əldə edə bilər, onun həqiqət kimi təqdim etdiyinin qəribəliyi həmin filosofun fikrinə irad etmək üçün əsas olmamalıdır.

İdealizmin müdafiə olunduğu əsaslar əsasən bilik nəzəriyyəsindən – yəni şeyləri bilə bilməyimiz üçün onların ödəməli olduğu şərtlərin müzakirəsindən – çıxarılan əsaslardır. Belə əsaslarda idealizm yaratmaq üçün edilmiş ilk ciddi cəhd yepiskop Berkliyə aiddir. O, əsasən düzgün arqumentlərlə, ilk olaraq sübut edib ki, hissi verilənlərimiz haqqında güman edilə bilməz ki, onlar bizdən müstəqil mövcudluğa malikdir, əksinə, onlar, ən azı qismən, "zehində" olmalıdır – o mənada ki, görmə, eşitmə, toxunma, iyləmə və ya dadma olmasaydı, onların mövcudluğu davam etməzdi. Bura qədər iddia tam düzgündür, baxmayaraq ki, onun bəzi arqumentləri heç də düzgün deyil. Hərçənd, Berkli iddiasına belə davam edir ki, hissi verilənlər yeganə nəsnələrdir ki, qavrayışlarımız onların mövcudluğu haqqında bizi əmin edə bilər; və bilinən olmaq "zehində" olmaqdır, ona görə də zehnidir. Beləliklə, Berkli o nəticəyə gəlir ki, heç nə zehində mövcud olmayınca bilinə bilməz və mənim zehnimdə olmadan bilinən şey başqa bir zehində olmalıdır.

Bu arqumenti başa düşmək üçün onun "ideya" sözünü necə istifadə etdiyini anlamaq zəruridir. O, "ideya" adını *birbaşa* – məsələn, hissi verilənlərin bilindiyi kimi – bilinən hər şeyə tətbiq edir. Belə ki, gördüyümüz bir rəng, eşitdiyimiz səs və s. ideyadır. Ancaq bu termini o, yalnız hissi verilənlərə tətbiq etmir; xatırlanan və ya təxəyyül olunan

şeylər də ideyadır, çünki xatırladığımız və ya təxəyyül etdiyimiz anda belə şeylərlə də birbaşa tanışlığa malik oluruq. Bütün bu birbaşa verilənləri o, “ideyalar” adlandırır.

Sonra o, məsələn, ağac kimi ümumi obyektləri nəzərdən keçirir. O, göstərir ki, ağacı “qavrayan” zaman birbaşa bildiyimiz hər bir şey – sözün o, istifadə etdiyi mənasında – ideyalardan təşkil olunub və iddia edir ki, qavranılmış olandan əlavə nəyinsə ağac haqqında gerçək olduğunu güman etməyə azacıq da olsa əsas yoxdur. Onun fikrincə, ağacın varlığı onun qavranılmasındadır: sxolastik latınca “esse” “percipi”-dir. O, tam şəkildə qəbul edir ki, hətta biz gözlərimizi bağlayanda və ya yaxınlıqda heç bir insan olmadıqda ağac mövcudluğuna davam etməlidir. Bununla belə, o əlavə edir ki, davam edən bu mövcudluğun səbəbi Allahın onu qavramağa davam etməsidir; fiziki obyekt adlandırdığımız nəsnəyə uyğun gələn “gerçək” ağac Allahın zehnindəki ideyalardan təşkil olunub; bu ideyalar az və ya çox dərəcədə ağacı gördüyümüz zaman malik olduğumuz ideyalara bənzəyir, lakin fərq ondadır ki, ağac mövcudluğuna davam etdikcə onlar Allahın zehnində davamlıdır. Berkliyə görə, bütün qavrayışlarımız qismən Allahın qavrayışlarında iştirakla təşkil olunur və bu iştirak səbəbindəndir ki, müxtəlif insanlar az və ya çox dərəcədə eyni ağacı görürlər. Beləliklə, zehinlərdən və onların ideyalarından başqa dünyada heç bir şey yoxdur; həmçinin, nəsə başqa bir şeyin bilinməsi də mümkün deyil, çünki bilinən hər şey zərurən ideyadır.

Bu arqumentdə fəlsəfə tarixində əhəmiyyəti olmuş, aydınlaşdırılası çoxsaylı qüsurlar vardır. İlk növbədə, burada “ideya” sözünün istifadəsindən ortaya çıxan qarışıqlıq var. Bizim üçün ideya mahiyyət etibarilə kiminsə *zehnində*dir, beləliklə, bizə ağacın tamamilə ideyalardan təşkil olunduğu deyildikdə güman etmək təbii olur ki, əgər belədirsə, onda ağac tamamilə zehində olmalıdır. Ancaq “zehində” olmaq anlayışı çoxmənalıdır. Biz kimisə fikrimizdə tutmaqdan o mənada danışmırıq ki, həmin şəxs bizim zehnimizin içindədir, o mənada danışırıq ki, onun haqqındakı fikir zehnimizdədir. Birisi “yadımdan nəsə çıxdı” deyəndə, həmin nəsnənin özünün

onun zehnindən çıxdığını deyil, sözügedən nəsnə haqqındakı fikrin əvvəl onun zehnində olduğunu, daha sonra isə oradakı mövcudluğunu dayandırdığını nəzərdə tutur. Demək, Berkli “əgər ağacı bilə biləriksə, o, zehnimizdə olmalıdır” deyəndə, əslində, onun ancaq “ağac haqqındakı fikir zehnimizdədir” deməyə haqqı var. Ağacın özünün zehnimizdə olduğunu iddia etmək fikrimizdə tutduğumuz insanın özünün zehnimizdə olduğunu iddia etməyə bənzəyir. Belə qarışıqlığa yol vermək həqiqətən istənilən səriştəli filosofun edə biləcəyi çox kobud səhv kimi görünə bilər. Ancaq bu səhvi müxtəlif müşayiətedici vəziyyətlər mümkün edib. Bunun necə mümkün olduğunu görmək üçün biz ideyaların təbiəti ilə bağlı sual üzərində daha dərindən düşünməliyik.

İdeyaların təbiəti ilə bağlı ümumi suala keçid etməmişdən əvvəl biz hissi verilənlər və fiziki obyektlərlə bağlı ortaya çıxan iki sualı tam olaraq bir-birindən ayırmalıyıq. Biz gördük ki, detallı göstərilən müxtəlif səbəblərə görə Berkli ağac qavrayışımızı təşkil edən hissi verilənləri az və ya çox dərəcədə subyektiv hesab etməkdə haqlı idi; o mənada ki, hissi verilənlər ağacdan asılı olduğu qədər də bizdən asılıdır və onlar, əgər agac qavranılmasaydı, mövcud olmazdı. Ancaq bu, o fikirdən tamamilə fərqli mövqedir ki, onun vasitəsilə Berkli “birbaşa bilinə bilən hər şey zehində *olmalı*dır” fikrini sübut etməyə çalışır. Hissi verilənlərin bizdən asılılığı ilə bağlı detallı arqumentlər bu məqsədə görə faydasızdır. Ümumiyyətlə, sübut edilməsi zəruri olan odur ki, bilinən olmaqla şeylərin zehni olduğu göstərilir. Berklinin özü bunu sübut etdiyinə inanır. İndi bizi hissi verilənlərlə fiziki obyekt arasındakı fərqlə bağlı olan əvvəlki sual deyil, məhz bu sual maraqlandırmalıdır.

“İdeya” sözünü Berklinin istifadə etdiyi mənada götürdükdə, zehindəki ideya ilə bağlı nəzərdən keçirilməli olan iki tamamilə müxtəlif məsələ var: bir tərəfdən, fərqində olduğumuz şey (the thing of which we are aware) – məsələn, stolumun rəngi – digər tərəfdən isə aktual fərqindəlilik şüurunun özü (the actual awareness itself) – yəni şeyi zehni dərketmə aktı.

Zehni akt, şübhəsiz, zehnidir; bəs, dərk olunan şeyin hansısa mənada zehni olduğunu güman etməyə əsas varmı? Rənglə bağlı əvvəlki arqumentlərimiz onun zehni olduğunu deyil, yalnız onu sübut etdi ki, onun mövcudluğu hiss orqanlarımızın fiziki obyektlə, bizim misalda stolla olan əlaqəsindən asılıdır. Yəni arqumentlərimiz sübut edir ki, əgər müəyyən bir mövqedən stola normal bir göz baxırsa, müəyyən işıq altında müəyyən bir rəng mövcud olacaq. Onlar sübut etmir ki, rəng qavrayanın zehnindədir.

Berklinin "aşkardır ki, rəng zehində *olmalı*dır" fikrini bölüşmək o zaman mümkün görünür ki, dərk olunan şeylə dərk etmə aktı qarışıq salınsın. Bunların hər ikisi "ideya" adlandırıla bilər; yəqin ki, Berkli hər ikisini elə "ideya" adlandırmış olardı. Akt, şübhəsiz, zehindədir; demək, akt haqqında düşündükdə biz "ideyalar zehində olmalıdır" fikrinə tam razılıq veririk. Sonra isə bunun ideyaları dərketmə aktı kimi nəzərdən keçirdikdə doğru olduğunu unudaraq, biz "ideyalar zehindədir" fikrini sözün digər mənasındakı ideyalara, yəni dərketmə aktlarımız vasitəsilə dərkedilən şeylərə aid edirik. Beləliklə, qeyri-ixtiyari şəkildə çoxmənalılıq yaratmaqla, biz belə nəticəyə gəlirik ki, dərk edilə bilən hər şey zehində olmalıdır. Bu, Berklinin arqumentinin və onun əsaslandığı əsas qüsurunun doğru analizi kimi görünür.

Şeyləri dərketməmizdə akt və obyekt arasındakı fərq haqqındakı bu sual olduqca əhəmiyyətlidir, çünki bütün bilik əldə etmə imkanlarımız onunla əlaqəlidir. Özündən kənar şeylərlə tanış olmaq bacarığı zehnin əsas xüsusiyyətidir. Obyektlərlə tanışlıq mahiyyətcə zehin və ondan kənar bir nəsnə arasındakı əlaqədən ibarətdir; zehnin şeyləri bilmə gücünü təşkil edən də məhz budur. Əgər "bilinən şey zehində olmalıdır" deyiriksə, onda biz ya zehnin bilmə gücünü həddən artıq məhdudlaşdırırıq, ya da sadəcə taftalogiya edirik. Əgər "*zehində*" deməklə, "zehin *qarşısında*" dediyimiz zaman nəzərdə tutduğumuzu nəzərdə tuturuqsa, yəni əgər yalnız zehin ilə dərk edilməyi nəzərdə tuturuqsa, onda biz sadəcə taftalogiya edirik. Ancaq nəzərdə

bunu tuturuqsa, qəbul etməli olacağıq ki, *bu mənada* zehində olan hər nədirsə, o, zehni olmaya da bilər. Beləliklə, biz biliyin təbiətini aydınlaşdırdıqda, Berklinin arqumenti həm məzmun, həm də forma baxımından yanlış görünür və onun “ideyalar – yəni dərkedilən obyektlər – zehni olmalıdır” gümanı üçün əsasları tamamilə qüsurludur. Bu səbəbdən, onun idealizm üçün gətirdiyi arqumentləri kənara qoymaq olar. Bir qalır, baxaq görək, başqa arqumentlər varmı?

Bayağı həqiqət kimi tez-tez deyilir ki, bilmədiyimiz nəyinsə mövcud olduğunu bilə bilmərik. Buradan nəticə çıxarılır ki, təcrübələrimiz üçün hansısa şəkildə əhəmiyyəti ola bilən istənilən şey ən azı bizim bilə biləcəyimiz şey olmalıdır; və belə çıxır ki, əgər materiya mahiyyət etibarı ilə bizim tanış ola bilməyəcəyimiz bir şey olsaydı, o, mövcudluğunu bilə bilmədiyimiz və bizim üçün heç bir əhəmiyyəti ola bilməyən bir nəsnə olardı. Həmçinin, qaranlıq qalan səbəblərə görə, ümumi olaraq, belə nəticə çıxarılır ki, bizim üçün əhəmiyyəti ola bilməyən nəsnə gerçək ola bilməz və ona görə də materiya – əgər o, zehinlərdən və zehni ideyalardan təşkil olunmayıbsa – mümkün deyil və sadəcə xülyadır.

İndiki mərhələdə bu arqumentin üzərinə tam olaraq getmək mümkünsüz olardı, çünki o, əhəmiyyətli dərəcədə müzakirəyə ilkin olaraq ehtiyacı olan məsələlərə toxunur. Hərçənd, bu arqumenti inkar etmək üçün bəzi fikirləri dərhal qeyd etmək olar. Sondan başlayaq: bizim üçün *praktiki* əhəmiyyətə malik ola bilməyən şeyin gerçək ola bilməməsi üçün heç bir əsas yoxdur. Doğrudur ki, *nəzəri* əhəmiyyəti də hesaba alsaq, gerçək olan hər şeyin bizim üçün *müəyyən* əhəmiyyəti olur, çünki kainat haqqındakı həqiqət arzusunda olan şəxslər kimi bizim orada olan hər şeyə müəyyən marağımız var. Ancaq belə bir maraq varsa, mövcud olduğu halda, materiyanın bizim üçün əhəmiyyətinin olmaması doğru deyil – əgər onun mövcud olduğunu bilə bilməsək belə. Aydındır ki, onun mövcud olub-olmadığını güman edə və sorğulaya bilərik. Deməli, o, bizim bilmək istəyimizə bağlıdır və onun həmin istəyi qane etmək və ya bizi məyus etmək baxımından əhəmiyyəti vardır.

Yenə də qeyd edək ki, “bilmədiyimiz nəyinsə mövcud olduğunu bilə bilmərik” fikri heç bir halda bayağı həqiqət deyil və bu fikir, əslində, yanlışdır. “Bilmək” sözü burada iki müxtəlif mənada işlədilir.[1] (1) Birinci mənada o, yanılmaya qarşı müqaviməti olan bilik növünə tətbiq olunur; bildiyimiz hər şey *doğru*dur – mənasında işlədilir; inamlarımıza və baxışlarımıza, *fikir* adlandırdıqlarımıza tətbiq olunur. Sözün bu cür mənasında biz hansısa halın var olduğunu bilirik. Bu növ biliyi *doğrular* biliyi kimi qələmə vermək olar. (2) İkinci mənada “bilik” sözü *şeylər* haqqındakı biliklərimizə tətbiq olunur ki, onu da biz *tanışlıq* bilik adlandıra bilərik. Hissi verilənləri biz məhz bu mənada bilirik. (Bu fərqləndirmə fransızcada təxminən *savoir* və *connaitre* və ya almancada *wissen* və *kennen* arasındakı fərqə uyğundur.)

Beləliklə, bayağı həqiqət kimi görünən həmin iddianı yenidən ifadə etsək, o, belə olar: “Tanış olmadığımız nəyinsə mövcud olduğunu heç zaman doğru olaraq düşünə bilmərik”. Bu, heç bir halda bayağı həqiqət deyil, əksinə, aşkar yanlışlıqdır. Mən Çin imperatoru ilə tanış olmaq şərəfinə malik deyiləm, ancaq mən doğru olaraq düşünürəm ki, o, mövcuddur. Əlbəttə, deyilə bilər ki, mən digər insanların onunla tanışlığına əsasən belə düşünürəm. Hərçənd, bu, dəxlisiz bir irad olar, çünki həmin prinsip doğru olsaydı, mən başqa birisinin onunla tanış olduğunu bilə bilməzdim. Bundan əlavə, mənim *heç kimin* tanış olmadığı nəyinsə mövcudluğunu nəyə görə bilməyəcəyim üçün də əsas yoxdur. Bu məqam əhəmiyyətlidir və izaha ehtiyacı vardır.

Əgər mövcud olan bir şeylə tanışamsa, tanışlığım mənə “o, mövcuddur” biliyini verir. Ancaq, əksinə, doğru deyildir ki, müəyyən növ bir şeyin mövcud olduğunu bilə bildikdə, mən və ya başqa birisi həmin şeylə tanış olmalıdır. Tanışlıqsız doğru düşünmək halında şey mənə *təsvir* vasitəsilə bilinir. Bu zaman, ümumi bir prinsip vasitəsilə, təsvirə uyğun gələn şeyin mövcudluğu tanış olduğum nəsnənin mövcudluğundan nəticə kimi çıxarıla bilər. Bu məqamı tam başa düşmək üçün ilk olaraq tanışlıq biliyi ilə təsviri bilik arasındakı fərqlə yaxşıca məşğul olacağıq; daha sonra, əgər varsa, ümumi prinsiplər

haqqında hansı biliyin öz yaşantılarımızın mövcudluğu haqqındakı biliklə eyni cür qətiliyə malik olduğunu nəzərdən keçirəcəyik. Bu məsələlərlə növbəti fəsillərdə məşğul olacağıq.

[1] Söhbət “we cannot know that anything exists which we do not know” cümləsindəki “know” sözündən gedir (*tərcüməçi qeydi*).

**Tərcümənin birinci hissəsi:**

*Təzahür və gerçəklik*

**Tərcümənin ikinci hissəsi:**

*Materiyanın mövcudluğu*

**Tərcümənin üçüncü hissəsi:**

*Materiyanın mövcudluğu*